***Azərbaycanda turizmin inkişafı dövlət siyasətinin tərkib hissəsidir və iqtisadi tərəqqinin, rifahın mühüm amillərindən biri kimi qiymətləndirilir. Ümummilli lider Heydər Əliyev Azərbaycanın bu potensialını düzgün dəyərləndirərək, tənəzzülün aradan qaldırılması və turizmin inkişafı üçün mühüm investisiya tələb edən bir sıra kompleks tədbirlər həyata keçirdi. Ulu öndərin möhkəm təmələ söykənən sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sektorunda uğurlu islahatların aparılmasına imkan yaratdı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən və həyata keçirilən sosial-iqtisadi siyasət sayəsində Azərbaycanın turizm imkanları genişlənir və bu istiqamətdə müxtəlif addımlar atılır.***

# Azərbaycanın turizm potensialı genişlənir



Turizm iqtisadi fəaliyyət sahəsi kimi böyük əhəmiyyət kəsb edir və bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Belə ki, turizm insanın, bütövlükdə cəmiyyətin mənafeyinə xidmət edir və həm mikro, həm də makroiqtisadi səviyyədə gəlir mənbəyidir. Bundan başqa, turizm əlavə iş yerlərinin yaradılmasında əsas amillərdən birinə çevrilir, yol və mehmanxana tikintisinin inkişafını sürətləndirir, bütün növ nəqliyyat vasitələrinin istehsalını stimullaşdırır, regionların və ölkələrin xalq sənətkarlığının, milli mədəniyyətinin qorunub saxlanmasına töhfələr verir. Bir sözlə, turizm inkişaf etdiyi regionun (və ya ölkənin) iqtisadiyyatına, onun iqtisadi, sosial və humanitar əsaslarına fəal təsir göstərə bilir. Xüsusilə də qeyd etmək lazımdır ki, dünyanın inkişaf etmiş sənaye ölkələrində güzəranın yaxşılaşması turizmin inkişafına mühüm təsir göstərir. Səyahət və turizmə tələbat, eyni zamanda, bazar mexanizmləri və turizm və səyahətlə bilavasitə əlaqəsi olmayan, lakin turizm fəaliyyətinə tələbin dərəcəsi və formasına əhəmiyyətli təsir göstərən amillərlə müəyyən edilir. Bütün bu reallıqları qiymətləndirən Azərbaycan dövləti turizmin inkişaf etdirilməsini prioritet sahələrdən biri hesab edir və zəruri hüquqi-normativ baza yaratmaqla yanaşı, zəruri infrastrukturun yaradılmasına hərtərəfli dəstək verir.



Heç kimə sirr deyil ki, Azərbaycanın zəngin təbii sərvətləri və iqlim şəraiti turizmin inkişafı üçün əlverişlidir. Dünyada mövcud olan 11 iqlim qurşağından 9-u ölkəmizdə müşahidə olunur. Bu potensialı yüksək qiymətləndirən Azərbaycan dövləti ölkədə turizm sahəsinin inkişaf etdirilməsinə yönəlmiş uğurlu siyasət aparır. Belə ki, həyata keçirilən genişmiqyaslı və çoxplanlı siyasət nəticəsində ölkədə qeyri-neft sektorundan gələn gəlirlər artır, ölkənin iqtisadi potensialı möhkəmlənir. Bu sahədə infrastrukturun və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, ölkəyə gəliş-gediş, o cümlədən viza sisteminin sadələşdirilməsi, şübhəsiz ki, artımı təşviq edir. Məlumdur ki, turizm iqtisadiyyatın nəqliyyat, rabitə, tikinti, kənd təsərrüfatı kimi əsas sahələrinə də təsir göstərir, yeni sosial-iqtisadi inkişafın bir növ katalizatoru kimi çıxış edir. Valyuta gəlirləri və beynəlxalq əlaqələrin genişləndirilməsi mənbəyi kimi turizmin əhəmiyyəti durmadan artır. Son illərdə açıq-yeni turizm marşrutlarının, istiqamətlərinin, obyektlərinin sayının artması turizm gəlirlərinin artmasına imkan yaradır.

Ümumiyyərlə, ölkəmizdə tarix, din və mədəniyyət abidələrinin bərpası dövlət siyasətində mühüm yer tutur. Prezident İlham Əliyevin diqqəti sayəsində bu cür obyektlərin təmiri, bərpası və yenidən qurulması istiqamətində böyük işlər görülmüşdür. Prezidentin imzaladığı çoxsaylı sərəncamlara əsasən, turizm obyektlərinin müasir standartlara uyğunlaşdırılması və ərazidə yeni turizm infrastrukturunun yaradılması turizm potensialının daha da gücləndirir. Dövlət səviyyəsində həyata keçirilən layihələr dövlətimizin tarixi, dini və mədəni abidələrə nə qədər həssaslıqla yanaşıldığını göstərir və Azərbaycanın qədim, tarixi torpaq olduğunu bir daha sübut edir. Bundan başqa, turizm obyektlərinin müasir standartlara uyğunlaşdırılması turistlərin cəlb olunmasında mühüm rol oynayır. Ən əsası, işğaldan azad edilmiş ərazilər də Azərbaycanda turizmin inkişafı üçün yeni perspektivlər açır. Bu, əlbəttə, potensial investorlar üçün turizm sektorunun inkişafına investisiyaların artırılması üçün güclü stimuldur. Üstəlik, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təşkilinin turizm potensialına güclü təsir göstərəcəyi şübhəsizdir.

Məlumdur ki, turizm sektoru ölkəmiz üçün bir neçə cəhətdən – iqtisadiyyatın güclənməsi, bölgələrin inkişafı və Azərbaycanın bütün dünyada tanınması baxımından səciyyəvidir. Turizm sahəsi həm regionların inkişafı, həm də ki ölkənin iqtisadi potensialının möhkəmlənməsi, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Ölkəmizdə istənilən təbii şərait, istənilən iqlim var. Regionlarda təbiətin zənginliyi və rəngarəngliyi turizmin müxtəlif növlərinin inkişafına geniş imkanlar yaradır. Artıq bir sıra rayonlarda infrastrukturun yaradılması istiqamətində böyük işlər görülür. Həmin bölgələrdə yerli əhali artıq kənd turizmi ilə məşğul olaraq ilin bütün mövsümlərində yerli və xarici turistlərə yaşayış, yemək, hətta ekskursiya xidmətləri göstərirlər. Statistik rəqəmlər də göstərir ki, turizm xidməti yüksələn xidmət üzrə artır. Belə ki, ötən il mehmanxanaların gəlirləri 2020-ci illə müqayisədə 79,1 faiz artaraq, 209,2 milyon manat olub. Bunun da 59,7 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 28,9 faizi ictimai iaşə xidmətlərindən, 2,5 faizi müalicə və sağlamlıq xidmətlərindən, 8,9 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilib.

Bir sözlə, zəngin tarixi və mədəni irs, nadir təbii və iqlim şəraiti, eləcə də Azərbaycanın siyasi sabitliyi və dinamik inkişafı ölkədə turizm üçün əlverişli şərait yaradır. Müasir turizm infrastrukturunun inkişafına dövlət yanaşması və ölkədə turizmin müxtəlif növ və formalarının inkişafı üçün şəraitin yaradılması sayəsində ölkə vətəndaşları ilə yanaşı, dünyanın bir çox ölkələrindən milyonlarla turist "Odlar yurdu"na səyahət və istirahət etmək şansı qazanmışdır. Azərbaycanda getdikcə artan turist axınının tələbatını ödəyən müasir otellər şəbəkəsi yaradılmışdır və bu dinamik inkişaf artmaqda davam edir. Şərq və Qərb mədəniyyətlərinin bir çoxunu özündə cəmləşdirən ölkənin zəngin tarixi və mədəniyyəti dünyanın hər yerindən gələn turistlərdə əsl maraq doğurur, axın ildən-ilə güclənir. Mineral bulaqların bolluğu, duz mağaralarının olması və dünyada yeganə müalicəvi neft yatağı – Naftalan Azərbaycanda müalicə turizminin formalaşmasına öz töhfəsini verir. Şübhə yoxdur ki, dövlətin bu sahəyə marağı və dəstəyi sayəsində Azərbaycan regionun turizm mərkəzi kimi mövqeyini daha da gücləndirəcək.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 4 mart.- S.10.